*Sevdin dağı, daşları,*
*Köksünə sığışdırıb,*
*Oyatdın yatanları.*

*Sən evinin içindən,*
*Körpü saldın dağlara,*
*Başqa bir gözlə baxdın,*
*Yaxına, uzaqlara.*

*Masan oldu qara daş,*
*Qələm, vərəq, birdə daş,*
*Yazdın vətən dərdini,*
*Oldun dərdli vətəndaş.*

*Alnının tərin yudun,*
*Qarşından axan çayda,*
*Elin dərdin yuyulmaz,*
*Nə bu tay, nə o tayda.*

*Hər şeirin içində,*
*Sərgi oldu gerçəklər,*
*Hər misranın içində,*
*Aşdı incə çiçəklər.*

*Hər dərdi qalaqladın,*
*İçimdəki boşluğa,*
*Şeirlərin uyuşmur*
*Sənsiz qalan yoxluğa.*

*Adındakı iki ad,*
*Peyğəmbərlərin adı,*
*Musa Yaqubdan gəlib,*
*Dağ çiçəklərin dadı…*

**Mərziyyə Əfəndiyeva**
Qəbələ Yazarları İB-nin üzvü



**Musa boyda dünya var**

*Süzülüb qələmindən,*
*Neçə-neçə misralar,*
*Hər misranın içində,*
*Musa boyda dünya var.*

*Gah yazdın tərəzinin,*
*Əyri olan gözündən,*
*Gah günah axtarmısan,*
*Elə öncə özündən.*

*Sən tanıya bilirdin,*
*Südə suyu qatanı,*
*Sən tanıya bilirdin,*
*Şəkərlə bal tutanı.*

*Sən tanıya bilirdin,*
*Söz verib dananları,*
*Danışdığı sözlərin*
*Ağ yalan olanları.*

*İnsandan çox güvəndin,*